Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Firudin bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Qarışqa və göyərçin



# Qarışqa və göyərçin

Nağıl



Azərbaycan
Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı
Bakı – 1959



Bir gün qarışqa əyilib dəryadan su içirdi. Birdən sürüşüb dəryaya düşdü. Az qalmışdı ki, boğulsun. Göyərçin bunu gördü. O, qarışqanı ölümdən qurtarmağa çalışdı.



Fıkirləşdi, ağzına bir çöp alıb göyə qalxdı. Suyun üzünə endi, çöpü suya saldı, qarışqa o saat çöpün üstünə çıxdı.



Göyərçin yenidən çöpü dimdiyinə götürdü və qarışqanı quruya çıxartdı. Onu ölümdən qurtardı.



Qarışqa göyərçinə razılıq elədi. Elə həmin gün öz yerindən köçdü, göyərçinin yuvası olan ağacın dibində yuva saldı.



Burada yaşamağa başladı. Göyərçin bir yerə gedəndə, qarışqa dən toplayıb ağaca çıxırdı, göyərçinin balalarına verirdi.

Onlar beləcə mehriban dolanırdılar. Gün ötdü, ay dolandı, il gəldi, bir ovçu tor qurub göyərçini tutdu. Qarışqa bunu görəndə tez gedib ovçunun corabına girdi.



Ovcu bıçağı çıxarıb, göyərçinin boğazına çəkmək istəyəndə, qarışqa onun ayağını elə bərk sancdı ki, ovçu bıçağı da, göyərçini də yerə tulladı.



Ovçu əlini ayağına atdı, elə bildi кi, ayağını ilan çalmışdır. Göyərçin tez uçub yuvasına gəldi, qarışqaya razılıq elədi.

Bərpanəşr

Buraxılışa məsul: Aslan Cəfərov
Şəhla Qəmbərova

Redaktorlar: Zahirə Dadaşova
Səkinə Səmədova

Dizayn: Vəfa Ağamirzəyeva
Ellada Səfərəliyeva

Çapa imzalanmışdır: 20.06.2017
Formatı: 60x84 1/8
Həcmi: 1ç.v.
Sifariş 8
Tiraj: 500

*Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bakı-2017
"RENESSANS –A"